# *Vüqar Haqverdiyevin uşaq pyesi səhnələşdirilir*




Tanınmış uşaq yazarı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Vüqar Haqverdiyevin "Qarınqulu ayı" uşaq pyesi əsasında Bakı Uşaq və Gənclər Teatrında yeni tamaşa hazırlanır. Tamaşanın rejissoru tanınmış teatr və kino aktyoru, Azərbaycanın əməkdar artisti İntiqam Soltandır.

Teatrdan verilən məlumata görə sözügedən tamaşa kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulub və ideya, məzmun, süjet baxımından müasirliyi və orijinallığı ilə seçilir. Əsərin əsas məramı sevimli heyvanların dili ilə uşaqlara dostluq, yoldaşlıq hisslərini aşılamaq, düz danışmağın niyə vacib olduğunu göstərmək, eləcə də balacalarda həkimə, iynəyə qarşı qorxu hissini götürməkdir.

Qeyd edək ki, "Qarınqulu ayı" tamaşasının premyerası 2022-ci il fevralın 19-da saat 12:00-da Bakı Uşaq və Gənclər Teatrında baş tutacaq.

Ədəbiyyat qəzeti.- 5 fevral.- 2022- ci il.- S. 32.